

■ Filip Sopalt

İcazə verin tərənə oxusun,
su kimi ki, tərənə oxuyur.
Qaçmağına icazə verin,
düz su qaçan kimi.
Yaşamağına icazə verin,
su kimi ki, yaşayır.
Su kimi ki, çağlayır,
su kimi ki, qaynayır.
İcazə verin yatsın,
su yatan kimi.
Ölməyinə icazə verin,
düz su ölən kimi...

## SABAH BAZARDI

Sabah bazardı
Zaman boz olsa da belə,
gülümsəməyi öyrənməlisən.
niyə bu günü
ağlamaqla keçirək,
o zaman ki,
Günəş saçır.
Sabah dostların şənliyidir,
Qurbağaları, quşları,
göbələkləri unutmayacağıq,
milçəkləri, böcəkləri,
ən önəmlisi gün ortalar
göy qurşağımı gözləyəcəyik!
Bövşəyi, mavini, yaşılı,
sarı, narıncını və qırmızını...
...və biz atıl-batıl oynayacağıq!

## MÖCÜZƏLƏR

Bir damcı qan
gecənin ortasında
səhər çağında bir bulud
bağışlayan bir əl
gecə içində bir gülümsə
gecə yarısında bir röya
bir tufanda sükut
gözyaşı məzar daşı üzərində
bir musiqi notu pozulmuş saatdan
ormanlıqda dolanmaq
bir zərrə qar dənəsi sarı nərgiz üstə
və bir şeir ki,
heç zaman yaddan çıxmasın.

## ŞAİR ÜÇÜN NƏSİHƏT

Su kimi ol
bulaqların suyu,
buludların suyu kimi,
göy qurşağı ola bilərsən
ya... ya rəngsiz bir kəs ola bilərsən.
Heç şey gözəlliyi endirə bilməz.
Heç şey gözəlliyi kəsə bilməz.
Hətta ləhzələr,
Uzun yollar
Və ucqarlarda olan dənizlər belə
gözəlliyin qarşısını ala bilməz!
Küləklərdən heç zaman qorxma,
İsti-soyuqdan qorx!
Öyrən musiqini
Yorulmadan səslənib
Qulağına oxu
Və çətin olmuş olsa da,
əldə et!
Həmin su ol ki, yuxuya gedir
Həmin su ol ki, axır
O su ol ki, içməlidir,
sonsuz və şirin
duru və təmiz
su həyatdır yaşayanlar üçün
və ölüm də, vardır
onlara ki, içində qərq olurlar

## MƏŞUQ

Mən sevdiyim qadın
toxunma toxumaz,
röya görmək bacarar
röya... röya...
və röyaları yun buludundandır
rəngarəng ümidlərlə köpüklənmiş,
gecəni çağıran...
ütüləməkdə qəribə bacarığı var
qırmızı, mavi qəribəlik
bütün gecəliklər qəribəlik
quru xatirələr toplusu üçün
və qışın uzun gecələri...

Mən sevdiyim qadın
sevmək bacarır.
Ağır işləri bacarır
Məsələn dərdi, sabahı bilir.
Iztirabverici olan şənlik günlər kimi
O zaman ki, hər şey pisdən yaxşıdır.

* * *

Sənə bir tac bağışlamaq istəyirəm
odlu ulduzlardan bəzənmiş.
Sənə bir nəğmə bağışlayam
dünyanın bütün bülbüllərinin nəğməsi.

Qışın sükutundan,
baharın gülüşündən,
yazın şəffaflığından,
payızın şöləsindən,
istəyirəm sənə  bağışlayam.

Sənə əlimdən gəlməyən
bilmədiyim hər şeyi bağışlayam.

Sənə bağışlayıram,
Həyatımı,
əbədiyyətimi.

**Tərcümə:
Ümid Nəccari**

Kaspi.-2019.-2-4 mart.-14.